

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 108 (21.518)

14 iyun 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində tikintisi başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi və yeni istifadəyə verilən müasir itisürətli qayıqlarla tanış olub.

Dövlətimizin başçısı İlham Əliyev əvvəlcə Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə baxıb, onların texniki göstəriciləri ilə tanış olub.

Dövlətimizin başçısı ikinci dərəcəli sərhəd gözətçi gəmisində yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən və itisürətli qayıqla təchiz olunmuş sərhəd gözətçi gəmisinin uzunluğu 62 metrdir. Dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkün olan gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə ediləcək.

Sonra Azərbaycan Prezidenti sərhəd gözətçi gəmilərinin keçidinə baxıb.



## Gürcüstanın Acarıstan Muxtar Respublikasının nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir






İyunun 11-də Acarıstan Muxtar Respublikasının nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfərə gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Arçil Xabadzenin iştirakı ilə nümayəndə heyətləri arasında görüş olmuşdur.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında 2012-ci ildə əsası qoyulmuş mehriban dostluq və əməkdaşlıq əlaqələrinin bu gün uğurla davam etdirildiyini bildirmiş, bu əlaqələrin davamı olaraq dəvəti qəbul edib Naxçıvan Muxtar Respublikasına səfərə gəldiyinə görə Acarıstan Muxtar Respublikası Hökumətinin sədrinə təşəkkür etmişdir.

Ali Məclisin Sədri demişdir ki, Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında əlaqələr hər iki tərəfin səyi ilə ilbəil genişlənir. Hazırda ticarət-iqtisadi, səhiyyə və təhsil sahəsində əlaqələr əməkdaşlığın böyük potensiala malik olduğunu göstərir. Hər iki muxtar respublikanın ali təhsil müəssisələri – Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasındakı əlaqələr təhsil sahəsində əməkdaşlıq üçün yaxşı əsaslar yaratmışdır. Biz səhiyyə sahəsində əlaqələrə də böyük əhəmiyyət veririk. Acarıstanlı uşaqların müalicə üçün Naxçıvana gəlməsi hər iki tərəfdən yetişməkdə olan nəslin sağlam böyüməsinə göstərilən qayğının ifadəsidir. Biz bu il də qardaş acarıstanlı uşaqların müalicəsini davam etdirəcəyik. Dərinləşən əməkdaşlığımız birbaşa nəqliyyat əlaqəsinin yaradılmasını da zərurətə çevirmişdir. Yeni Naxçıvan-Batumi avtobus marşrutu açılmışdır. Bütün bunlar hər iki muxtar respublika arasında daha sıx əlaqələri təmin edəcəkdir. “Bizim əlaqələrimiz qardaşlıq əlaqəsidir”, – deyən Ali Məclisin Sədri vurğulamışdır ki, biz bundan sonra da Azərbaycan-Gürcüstan əlaqələrinin tərkib hissəsi kimi Naxçıvan-Acarıstan əlaqələrinin davamlı olmasına və digər sahələrdə də inkişaf etdirilməsinə səyimizi artıracağıq.

Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Arçil Xabadze Naxçıvan Muxtar Respublikasına səfərə dəvətə və göstərilən səmimi münasibətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, Naxçıvanda olmaqdan məmnunluğunu bildirmişdir. Qonaq demişdir ki, hər iki muxtar qurum arasında həyata keçirilən qarşılıqlı səfərlər, Naxçıvan və Batumi şəhərləri arasında əməkdaşlığa dair memorandumun imzalanması öz bəhrəsini vermiş, ötən dövrdə əlaqələr sürətlə inkişaf etmişdir. Bu gün Acarıstan və Naxçıvan muxtar respublikaları arasında əlverişli biznes və investisiya mühiti mövcuddur. Hazırda iqtisadi-ticarət, təhsil, səhiyyə və nəqliyyat sahəsində əlaqələr inkişaf etdirilir.

Naxçıvanın mövcud iqtisadi potensialının məmnunluq doğurduğunu vurğulayan Arçil Xabadze bundan sonra da ikitərəfli əlaqələrin inkişafı üçün səylərin göstəriləcəyini bildirmişdir.

Görüşdə qarşılıqlı əlaqələrin perspektivləri nəzərdən keçirilmiş, əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olunmuş, xatirə şəkli çəkdirilmişdir.

Azərbaycan Respublikasının Batumidəki Baş konsulu Rəşad İsmayılov görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Acarıstan Muxtar Respublikasının nümayəndə heyəti Naxçıvanla tanış olmuşdur





İyunun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Arçil Xabadze “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olmuşlar.

Möminə xatın türbəsi ilə tanışlıq zamanı məlumat verilmişdir ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilmişdir. Həmin dövrdə Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar vermiş və bundan sonra məqbərə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmişdir. Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Sərdabə orijinal quruluşlu olub, bədii baxımdan zəngin tərtibata malikdir. Hələ on ikinci əsrdə qadına verilən dəyərin ifadəsi olan abidə Naxçıvan memarlıq

Ardı 2-ci səhifədə





məktəbinin ən dəyərli incilərindəndir.

Naxçıvan şəhərindəki Açıq Səma Altında Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyul tarixli Sərəncamına əsasən yaradılmışdır. Muzeyin yaradılmasında məqsəd Azərbaycan xalqının dekorativ tətbiqi sənətinin ən dəyərli incilərindən olan daşdan yonulmuş mədəniyyət nümunələrimizin mühafizəsi, öyrənilməsi və təbliğindən ibarətdir. Ekspozisiyada mifoloji və dini baxışlarla bağlı qoç heykəllər, daş kitabələr, qəbirüstü abidələr və digər mədəniyyət nümunələrindən ibarət 226 ədəd eksponat mühafizə və nümayiş etdirilir.



Sonra qonaqlar qədim musiqi alətlərinin hazırlanması ilə tanış olmuş, hədiyyələr mağazasına baxmışlar.

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinə baxış zamanı qeyd olunmuşdur ki, Xan Sarayı XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Bina 1760-cı illərdə Naxçıvan xanı Ehsan xanın atası Kalbalı xan Kəngərli tərəfindən tikdirilmişdir. Şərq memarlığı üslubunda tikilmiş abidə XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək Naxçıvan xanlarının yaşayış evi olmuş, bununla yanaşı, xanlığın siyasi iqamətgahı funksiyasını yerinə yetirmişdir. Muzey Naxçıvan xanlığının dövlətçilik tariximizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılmışdır. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə Naxçıvan xanlığının dövlət və döyüş bayraqları, arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlığının və Kəngərli nəslinin tarixi ilə bağlı nəşr olunmuş kitablar, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir. Qonaqlara Naxçıvan xanlarının şəcərəsi, bu torpağın yetirməsi olan görkəmli generalların həyat və fəaliyyəti barədə ətraflı məlumat verilmişdir.

Həmin gün Ali Məclisin Sədri və Acarıstan Muxtar Respublikasının nümayəndə heyəti Naxçıvan Biznes Mərkəzində də olmuşlar.

Qonaqlara mərkəzin fəaliyyəti və muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, mərkəzdə muxtar respublikada istehsal olunan müxtəlif növ ərzaq və sənaye məhsulları, əl işləri və rəsm əsərləri sərgilənir. Həmçinin burada müxtəlif tədbirlər, biznes forumlar, işgüzar görüş və konfranslar keçirilir. Sərgi salonunda 97 müəssisənin 136 növdə və 916 çeşiddə məhsulu, müxtəlif sənətkarlar tərəfindən hazırlanan əl işləri və rəsm əsərləri nümayiş olunur. Yeni istehsal və emal sahələrinin sayının artması nəticəsində bu gün muxtar respublikada 365 növdə məhsul istehsal olunur, əhalinin 343 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir. Görülən işlər ixracın həcminin artmasına da öz təsirini göstərmişdir. Artıq muxtar respublikada istehsal olunan məhsullar dünyanın bir çox ölkələri ilə yanaşı, Gürcüstana və onun Acarıstan Muxtar Respublikasına da ixrac olunur.

Acarıstanlı qonaqlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də olmuşlar. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Tarixin bütün dövrlərində bu qədim diyarda zəngin mədəniyyət və memarlıq nümunələri yaradılmışdır. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. Qala yalnız müdafiə məqsədi daşımamış, eyni zamanda burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilmişdir. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılmış, qalanın əvvəlki görkəmi özünə qaytarılmışdır. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır. Muzeydə eramızdan əvvəl V-VIII minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir.



Sonra nümayəndə heyəti kompleksdə yerləşən Nuh Peyğəmbərin məzarüstü türbəsini də ziyarət etmiş, abidə önündə xatirə şəkli çəkdirmişlər.

Günün sonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Acarıstan Muxtar Respublikasının nümayəndə heyəti ilə birlikdə Duzdağ Fizioterapiya Mərkəzinə gəlmiş, burada müalicə olunan xəstələrin səhhəti ilə maraqlanmış, mərkəzin fəaliyyəti ilə tanış olmuşdur.



Bildirilmişdir ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan Duzdağ Fizioterapiya Mərkəzində bronxial-astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunur. 300 yerlik xəstəxanada temperatur sabitdir. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması isə xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında səhiyyə sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2012-ci ildən etibarən hər il tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı uşaqların Duzdağ Fizioterapiya Mərkəzində müalicəsi təşkil olunur.

Həmin gün Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Arçil Xabadze və onu müşayiət edən nümayəndə heyəti Naxçıvan Dövlət Xalça Muzeyində və Naxçıvan Dövlət Musiqili Dram Teatrında da olmuşlar. Teatrla tanışlıq zamanı qonaqlar Naxçıvan Dövlət Filarmoniyasının ifasında konsert proqramına baxmışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanın ali təhsil müəssisələri ilə tanışlıq acarıstanlı qonaqlarda xoş təəssüratlar yaradıb

***Xəbər verdiyimiz kimi, iyunun 11-də Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Arçil Xabadzenin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.***

Əvvəlcə qonaqlar ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Sonra nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub. Universitetin tədris korpusları ilə tanış olan qonaqlara məlumat verilib ki, hazırda dünyanın 80-dən çox tanınmış ali məktəbi ilə sıx əməkdaşlıq mövcuddur. Qeyd olunub ki, Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında bağlanmış müqaviləyə uyğun olaraq, hər iki ali təhsil müəssisəsi 2012-ci ildən sıx əməkdaşlıq edir. Universitetlərarası tələbə və müəllim mübadiləsi həyata keçirilir. Hər iki tərəfin elm və təhsil müəssisələrində keçirilən beynəlxalq elmi konfranslarda gürcü və azərbaycanlı alimlərin iştirak və çıxış etmələri humanitar sahədə əlaqələri daha da genişləndirib.

Naxçıvan şəhərinin ən hündür məkanında qərar tutan Dövlət Bayrağı Meydanı və Muzeyi də qonaqlarda böyük maraq doğurub.

Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Arçil Xabadzenin başçılıq etdiyi nümayəndə heyəti "Naxçıvan" Universiteti ilə də yaxından tanış olub. Bildirilib ki, 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 9 kafedra və 5 şöbə var. 2015-ci il sentyabrın 15-də – Bilik Günündə "Naxçıvan" Universiteti üçün inşa olunan yeni universitet şəhərciyi istifadəyə verilib. Universitet şəhərciyinə rektorluq binası, iki tədris korpusu, kitabxana, sosial xidmət mərkəzi, yataqxana, idman və konfrans zalları daxildir. Yaradılmış şərait nəticəsində ali təhsil ocağında təhsil alan tələbələrin sayı hər il artır. Bu gün "Naxçıvan" Universitetinin beynəlxalq əlaqələri də genişləndirilir. Universitetin əməkdaşlıq etdiyi ali məktəblərin sayı 50-ni ötüb.

"Naxçıvan" Universitetinin Rəsm qalereyası ilə tanış olan və buradakı rəsm əsərlərinə maraqla baxan Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Arçil Xabadzeyə muxtar respublikanın füsunkar təbiətini canlandıran "Haçadağ mənzərəsi" rəsm əsəri hədiyyə edilib.

İyunun 12-də Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı, səhiyyə, əmək və əhalinin sosial müdafiəsi nazirləri ilə Gürcüstanın Acarıstan Muxtar Respublikasından gələn nümayəndə heyətinin tərkibinə daxil olan müvafiq nazirliklərin rəhbərləri arasında görüş olub, qarşılıqlı fikir mübadiləsi aparılıb, əlaqələrin genişləndirilməsinin vacibliyi bildirilib.

**Rauf ƏLİYEV**

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilir

*İyunun 13-də Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın Qurtuluş tarixi" mövzusunda elmi-praktik konfrans keçirib.*

Naxçıvan Dövlət Tarix Muzeyində keçirilən konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyevanın, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Şurasının üzvü, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimovun, həmin muzeyin baş elmi işçisi Nərminə Allahverdiyevanın məruzələri olub.

Məruzələrdə qeyd edilib ki, ulu öndər Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçiləndə sosial-iqtisadi inkişafa görə keçmiş SSRİ-nin geridə qalan, ictimai-siyasi və sosial xaosun hökm sürdüyü respublikanı öz sələflərindən təhvil almışdı. Lakin ümummilli lider hakimiyyətinin elə ilk günlərindən Azərbaycanda mövcud olan problemlərin həlli üçün iradə ortaya qoyub və məhz öz uzaqgörənliyi, xalqa bağlılığı və dərin siyasi zəkası nəticəsində respublikamızı inkişafına görə keçmiş Sovetlər Birliyinin ilk üçlüyünə daxil olan ölkələr sırasına çıxarıb. İstər milli-mədəni, təhsil və elm, istərsə də ordu quruculuğu sahəsində milli kadrların yetişdirilməsi məsələsində Azərbaycan XX əsr tarixinin intibah dövrünü məhz 1969-1982-ci illərdə yaşayıb.

Bildirilib ki, ermənilərin Azərbaycan torpaqlarına təcavüzünün 1988-ci ildən başlandığı növbəti mərhələdə Naxçıvan da düşmənin real işğal təhlükəsi ilə üz-üzə dayanmışdı. Ulu öndərin 1990-cı il iyulun 22-də Naxçıvana qayıdışı və muxtar respublika rəhbəri kimi 1991-1993-cü illərdə həyata keçirdiyi tədbirlər Naxçıvanı işğaldan xilas edib. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilən tarixi qərarlarla ümummilli lider müstəqil Azərbaycan dövlətçiliyinin əsasını Naxçıvanda qoyub. Görkəmli dövlət xadimi Heydər Əliyevin düşünülmüş və çevik siyasəti ilə muxtar respublika eyni zamanda sosial-iqtisadi fəlakətdən də xilas olub.

Bildirilib ki, ümummilli liderimizin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Onun rəhbərliyi altında ölkəmiz 1993-2003-cü illərdə özünün möhtəşəm müstəqil dövlət quruculuğu salnaməsini yaradıb. Ulu öndər Azərbaycana birinci rəhbərliyi dövründə respublikamızda yaratdığı sosial-iqtisadi potensialı müstəqil Azərbaycan dövlətinin dirçəlməsi naminə uğurla istifadə edib, Azərbaycan Heydər Əliyevin liderliyində Qurtuluş mübarizəsini qalibiyyətlə başa vuraraq müasir, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun inkişafından hüquqi-siyasi, sosial-iqtisadi və elmi-mədəni intibah dövrünə qədəm qoyub. Heydər Əliyev yolu ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycan günbəgün inkişaf edir, yeni qələbələr qazanır.

Vurğulanıb ki, 1995-ci ildən üzübəri Naxçıvanda həyata keçirilən hərtərəfli quruculuq siyasəti ulu öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasına əsaslanıb. Naxçıvan Muxtar Respublikası həm sosial-iqtisadi inkişaf, həm də muxtar dövlət quruculuğu baxımından regionun və dünyanın analoji siyasi sistemlərinə nümunədir, inkişafın Naxçıvan modeli müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurub.

* * *



*Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə keçirilən, 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş lektoriyadan əvvəl məktəbin həyatındə ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri qoyulub.*

Tədbiri giriş sözü ilə məktəbin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov açıb.

Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov "Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın müstəqilliyinə və hərtərəfli inkişafına həsr edib. Ulu öndər Heydər Əliyev hələ keçən əsrin 60-cı illərindən başlayaraq daim ölkəmizin müstəqilliyini düşünür və bu yolda o dövr üçün çox çətin olan müəyyən addımlar atırdı. Gələcək müstəqil Azərbaycanın təməl daşlarının atıldığı həmin dövrlərdə yüzlərlə azərbaycanlı gənc ali təhsil almaq üçün keçmiş ittifaqın nüfuzlu təhsil ocaqlarına göndərilir, hərbçi kadrların yetişdirilməsinə diqqət artırılır, ölkədə səhiyyə, mədəniyyət, təhsil, idman obyektlərinin yaradılmasına ciddi fikir verilir, bütün sahələrin inkişafı diqqətdə saxlanılırdı. İmperiyanın süqutundan sonra ölkəmiz öz müstəqilliyinə qovuşdu. Ancaq bu müstəqilliyi qoruyub saxlamaq heç də asan olmadı. Bir tərəfdən daxili sabitliyin pozulması, digər tərəfdən ölkəmizə qarşı elan olunmamış müharibə Azərbaycanı məhv olmağa doğru sürükləyirdi. Məhz belə bir dövrdə xalqın yeganə ümidi ümummilli liderin siyasi hakimiyyətə qayıtması idi. 1993-cü ilin 15 iyununda ulu öndərimizin hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaqdan qurtardı.

Lektoriyada məktəbin müəllimləri Rahilə Seyidovanın "Xalqın qəlbində əbədi yaşayan Şəxsiyyət", Aynur Mustafayevanın "Zirvələrə aparan yol" mövzularında çıxışları olub.

Çıxışlarda vurğulanıb ki, Milli Qurtuluş Günü kimi tarixə düşmüş 15 iyun xalqımızın gələcəyə olan ümidlərini özünə qaytardı, hər şeydən əziz olan müstəqilliyimizin qorunmasına və möhkəmlənməsinə imkan verdi. Azərbaycan ümummilli lider Heydər Əliyevin sayəsində inkişaf və tərəqqi yoluna çıxdı. Artıq 20 ildən çoxdur ki, Azərbaycan bu yolla inamla irəliləyərək inkişaf edir, yeni uğurlara imza atır.

Sonda tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Azərbaycan qədər əbədi" filminə baxıblar.

*Naxçıvan Müəllimlər İnstitutunda Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib. Məşğələni institutun rektoru, professor Oruc Həsənli açıb.*

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etdi. Amma müstəqilliyin qorunmasının əldə edilməsindən nə qədər çətin olduğunu sonrakı hadisələr bir daha təsdiqlədi. Çünki cəmi iki il ərzində bir neçə dəfə hakimiyyət dəyişikliyi yaşamış Azərbaycan dövləti daxili çəkişmələr, vətəndaş müharibəsi təhlükəsi, total xaos, Ermənistanın işğalçılıq siyasəti, ən nəhayət, səriştəsiz dövlət idarəçiliyi səbəbindən dərin uçuruma sürüklənmişdi. Dövlətlə xalq arasında yaranan uçurum ölkədə separatizmin baş qaldırmasına, Azərbaycanın parçalanmasına və müstəqilliyin itirilmə təhlükəsinin yaranmasına gətirib çıxarmışdı. Bu səbəbdən də insanlar ölkənin düşdüyü ağır vəziyyətdən xilas edilməsini istəyirdi. Məhz belə bir dövrdə – 1993-cü ilin iyun ayında ulu öndər Heydər Əliyev xalqın təkid və xahişlərindən sonra Naxçıvandan Bakıya getdi.



Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev hələ Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə əsl vətənpərvərliklə, liderlik qabiliyyəti ilə dövlət müstəqilliyinin qazanılması sahəsində mühüm tədbirlər həyata keçirmişdi. Respublikamızda geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyəti, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdı.

1993-cü ilin iyununda – son dərəcə mürəkkəb bir dövrdə xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycanı parçalanmaq təhlükəsindən qurtardı. Görkəmli dövlət xadiminin ikinci dəfə ali hakimiyyətə qayıdışı məhz xalqımızın Qurtuluşunu təmin etdi.

Vurğulanıb ki, hər bir dövlətin inkişafı və tərəqqisi onun siyasi sabitliyindən, bu faktorun üzərində qurulmuş güclü iqtisadiyyatdan asılıdır. Elə bu səbəbdən də ümummilli lider Heydər Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti seçildikdən sonra ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi, müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi üçün çox əhəmiyyətli addımlar atdı. Ulu öndər Heydər Əliyev, ilk növbədə, cəbhədə atəşkəs sazişinin imzalanmasına nail oldu. Qısa bir müddətdə Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaq neft müqavilələri imzalandı. Ölkəmizdə bütün istiqamətlərdə kompleks islahatlar həyata keçirildi, elmi, mədəni, iqtisadi və digər sahələrdə nailiyyətlər əldə olundu. Eyni zamanda ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiya tərəfindən Azərbaycan Respublikasının ilk Konstitusiyası hazırlandı və ümumxalq səsverməsi yolu ilə 1995-ci il noyabrın 12-də qəbul edildi.

Vəli Baxşəliyev deyib ki, ötən dövrdə Azərbaycan sürətlə inkişaf edərək regionun ən güclü dövlətinə çevrilib. Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası da Heydər Əliyev siyasətinin uğurlu davamı nəticəsində hərtərəfli inkişaf edib. Həyata keçirilən quruculuq-abadlıq tədbirləri çərçivəsində muxtar respublikada yüzlərlə təhsil, səhiyyə, mədəniyyət ocağı tikilib və ya yenidən qurulub. Regionumuzun ən ucqar kəndlərində, eləcə də digər yaşayış məntəqələrində kompleks quruculuq işləri aparılıb. Bütün bunlar isə Milli Qurtuluş Gününün bəhrələridir.

Tədbirə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli yekun vurub.

**Xəbərlər şöbəsi**

## Məhkəmə hakimləri üçün seminar

***İyunun 11-də Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin hakimləri üçün İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin tətbiqinin aktual məsələləri, mülki və inzibati-iqtisadi işlərə baxılması zamanı yaranan problemlər və onların həlli yolları ilə bağlı seminar keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən genişmiqyaslı məhkəmə-hüquq islahatlarından danışıb. Qeyd edilib ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, məhkəmələrdə yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində ciddi addımlar atılıb.

Seminarda İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin tətbiqinin aktual məsələləri barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sədri Şahin Yusifovun, mülki və inzibati-iqtisadi işlərə baxılması zamanı yaranan problemlər və onların həlli yollarına dair inzibati-iqtisadi kollegiyanın hakimi İlqar Dadaşovun və mülki kollegiyanın hakimi Vəfaddin İbayevin, habelə mövzu barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları Kəmalə Əliyevanın, Gülarə Abdullayevanın və Süleyman Aslanovun məruzələri dinlənilib. Tədbirin gedişində mövzu ətrafında müzakirələr olub, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Tədbirə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vurub.

Seminar muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının tətbiqi təcrübəsinin daha da sistemləşdirilməsi ilə yanaşı, mövzu ilə bağlı qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından da mühüm əhəmiyyətə malik olub.

**Səbuhi HÜSEYNOV**

## Statistika işinin təkmilləşdirilməsi ilə bağlı ardıcıl tədbirlər görülür

***Bu gün muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sosial sahənin inkişafı üzrə aparılan tədbirlərin genişmiqyaslılığı rəsmi statistikanın da davamlı qaydada təkmilləşdirilməsi zərurətini yaradıb.***

Məhz bu zərurət nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasında statistika işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 1 iyun 2016-cı il tarixdə Sərəncam imzalanıb. Sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində inzibati ərazi dairələri üçün aktual statistik göstəriciləri özündə əks etdirən və beş bölmədən ibarət təsərrüfatbaşına kitab təsdiq edilib. Hər bir təsərrüfatbaşına kitab səhifələnib və axırıncı səhifəsində səhifələrin ümumi sayı göstərilməklə qaytanlanıb və möhürlənib.

Təsərrüfatbaşına kitabın birinci bölməsində təsərrüfat üzvlərinin siyahısı, ikinci bölmədə təsərrüfatın xüsusi mülkiyyətində olan heyvanların, quşların və arı ailələrinin sayı, üçüncü bölmədə təsərrüfatın xüsusi mülkiyyətində və ya istifadəsində olan torpaq, dördüncü bölmədə təsərrüfatın xüsusi mülkiyyətində və ya istifadəsində olan kənd təsərrüfatı texnikası, beşinci bölmədə isə təsərrüfata məxsus tikililər qeyd olunub. Təsərrüfatbaşına kitabın işlənilməsinə dair göstəriş hazırlanıb və işin normal aparılması üçün müvafiq izahlar verilib.

İyunun 10-da Sədərək Rayon İcra Hakimiyyətində təsərrüfatbaşına kitabın təqdimatı olub.

Tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq rayonda həyata keçirilən quruculuq işlərindən, əldə olunan nailiyyətlərdən bəhs edib.

Tədbirdə Dövlət Statistika Komitəsinin sədri Kamal Cəfərov rəsmi statistikanın inkişafından və qarşıya qoyulmuş vəzifələrdən danışıb.

Komitə Aparatının Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri Məhərrəm Məmmədov slayd vasitəsilə inzibati ərazi dairələrində təsərrüfatbaşına uçotun aparılmasına dair göstəriş haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Dövlət nəzarəti, ərazi idarəetmə orqanları, deputatlarla və komitələrlə iş şöbəsinin məsləhətçisi Oruc Babayev iştirak edib.

İnzibati ərazi dairələrində yerinə yetiriləcək mühüm tədbirlər muxtar respublikada statistika işinin daha da təkmilləşdirilməsinə, sosial-iqtisadi inkişafı və cəmiyyətin bütün sahələrində baş verən dəyişiklikləri əks etdirən statistik göstəricilərin hazırlanmasına geniş imkanlar yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***



# Peşə təhsili günün tələbidir

## Ordubad Texniki-Peşə və Sürücülük Məktəbində hərtərəfli şərait yaradılıb

*İxtisaslı peşəkar kadrlara olan ehtiyac nəzərə alınaraq 1979-cu ildə Naxçıvan şəhərindəki 32 nömrəli texniki-peşə məktəbinin Ordubad şəhərində filialı yaradılır. Filial üçün şəhərin M.T.Sidqi küçəsində uyğunlaşdırılmış binada yer ayrılır. Təhsil ocağı 1980-ci ildə müstəqil şəkildə Ordubad Orta Texniki-Peşə Məktəbi kimi fəaliyyətini davam etdirməyə başlayır.*





Burada əməliyyatçı-mühasib, ərzaq malları satıcısı, tikişçi-operator, elektrik qaz qaynaqçısı, meyvə-tərəvəz ustası, bənna və sair peşələr öyrədilir. Məktəbi bitirənlərin əmək fəaliyyətinə başlamaları, işlə təmin olunmaları da diqqət mərkəzində saxlanılır. Məzunlar rayonda fəaliyyət göstərən fabrik və zavodlarda, kolxoz və sovxozlarda, ictimai iaşə, müxtəlif xidmət sahələrində ixtisaslarına uyğun işlərlə təmin edilirlər. Amma bu təhsil ocağı uzun illər həm orta, həm də peşə təhsili verdiyi üçün ixtisaslı kadrların hazırlanmasında çətinliklər yaranırdı. Bu zaman gənclər seçdikləri peşələrə tam yiyələnə bilmirdilər. Üstəlik məktəbin fəaliyyət göstərdiyi bina da tam yararsız vəziyyətə düşmüşdü.

Bu il mayın 5-də isə məktəbin həyatında mühüm hadisə baş verib. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində Ordubad Texniki-Peşə və Sürücülük Məktəb Kompleksinin açılışı olub.

Açılış mərasimində çıxış edən Ali Məclisin Sədri deyib: ***"Bu gün muxtar respublikada gənclərə peşə təhsili vermək üçün lazımi imkanlar vardır. Hazırda muxtar respublikada yataqxanası olan peşə məktəb kompleksləri fəaliyyət göstərir. Bu məktəblərdə oxuyan gənclərə dövlətimiz tərəfindən təqaüd verilir. Bu gün Ordubad şəhərində istifadəyə verilən 522 yerlik peşə məktəbində müdavimlərin hərtərəfli təhsil alması, eləcə də məktəbin 100 yerlik yataqxanasında onların yaşayışı və qidalanması üçün lazımi şərait vardır. Muxtar respublikanın istənilən rayonundan, hətta Azərbaycanın digər bölgələrindən də müraciət edənlər bu məktəbdə təhsil ala bilərlər. Peşə məktəblərinin inkişafı bundan sonra da diqqətdə saxlanılacaqdır. Çünki peşəsi olmayan gənc gələcəkdə heç nəyə müvəffəq ola bilməz".***

Bu günlərdə məktəbdə olduq. Pedaqoji kollektivi təbrik etdik. Ordubad Texniki-Peşə və Sürücülük Məktəbinin direktoru Nicat Rzayev dedi ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin muxtar respublikada uğurla davam etdirilməsi iqtisadiyyatın sürətli inkişafına, yeni müəssisələrin və iş yerlərinin açılmasına səbəb olub. Yeni iş yerlərinin açılması isə ixtisaslı və peşəkar kadrlara olan tələbatı artırıb. Bu səbəbdən də son illər muxtar respublikada peşə təhsilinin inkişafı diqqət mərkəzində saxlanılır, peşə-ixtisas təhsili müəssisələrinin maddi-texniki bazası ilbəil möhkəmləndirilir. Ordubad Texniki-Peşə və Sürücülük Məktəbinin yeni binada fəaliyyətə başlaması bu sahəyə qayğının davamlı xarakter aldığının göstəricisidir. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət məktəbdə 12-si elektron lövhəli olmaqla, 28 sinif otağı, 4 emalatxana, şahmat sinfi, müəllimlər, kompüter, tibb və arxiv otaqları, 2000-ə yaxın dərs vəsaiti və bədii ədəbiyyatın mövcud olduğu kitabxana, 2 bərbər otağı, bufet, idman zalı və hərbi kabinə müəllim və müdavimlərin ixtiyarına verilib. Bu təhsil ocağında qadın bərbəri, bərbər, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, xalçaçılıq, traktorçu-maşinist, qazanxana maşinisti, aşpaz köməkçisi, ofisiant, avtomobil sürücüsü, elektrik və rabitə montyoru ixtisasları tədris edilir. Bütün sinif otaqları ayrı-ayrı ixtisaslara uyğun əyani vasitələrlə təchiz olunub. Məktəbin yataqxana binasında istirahət otaqları, camaşırxana, yeməkxana, komendant otağı, əşya və ərzaq anbarları vardır.

Direktor söhbətinə davam edərək deyir ki, başqa rayonlardan gələn müdavimlər də diqqət və qayğı ilə əhatə olunublar. Onlar hər cür şəraiti olan yataqxana və gündə 3 dəfə yeməklə təmin edilirlər. Məktəbdəki ixtisaslar üzrə 150 müdavim təhsil alır. Onlar 26 istehsalat təlimi ustasından oxuduqları peşənin sirlərini öyrənirlər. Müdavimlər məktəbin təlim meydançasında əyani vərdişlərə yiyələnirlər. Onların praktik vərdişlərinin artırılması üçün minik avtomobilinin xidmətindən istifadə edilir. Kollektiv Ordubad Texniki-Peşə və Sürücülük Məktəbi üçün yaradılan şəraitə görə dövlətimizə öz dərin minnətdarlığını bildirir.

Tədris korpusu ilə ilk tanışlığımız xalça emalatxanasından başlayır. Burada müəllimə Vəfa Hacıyeva 10 nəfər müdavimə xalçaçılıq sənətinin sirlərini öyrədir. Beş dəzgah arxasında əyləşən gənc xalçaçılar milli ornamentlərdən istifadə edərək həvəslə xalça toxuyurlar.

Məktəbin sürücülük kursunda 21 oğlan və 16 qız təhsil alır. Müdavimlərin ixtiyarında ən müasir avadanlıqlarla təchiz edilmiş trinajor otağı, elektron lövhəli fənn kabinələri, təlim meydançası və "NAZ Lifan-320" markalı minik avtomobili vardır. Bu kursda dərsləri ali təhsilli nəqliyyat mütəxəssisi Coşqun Məmmədov və Sərxan Həsənli tədris edirlər.

Məktəbdə rabitə montyoru, qadın və kişi bərbəri, aşpaz, ofisiant hazırlayan kurslarda da tədrisin yüksək səviyyədə aparıldığının şahidi oluruq. Bunun üçün fənn kabinələri və emalatxanalar elektron lövhə, əyani vəsaitlər, geyim dəstləri və digər materiallarla ən yüksək səviyyədə təchiz edilib.

Məktəbə gəlmişkən müəllimlərin, valideynlərin, müdavimlərin ürək sözlərini dinlədik. Məktəbin əlaçı müdavimi Şəbnəm Vəliyeva bildirdi ki, peşə öyrəndiyi məktəbin indiki binası ali məktəblərimizin binalarından seçilmir. Bu isə onların yaxşı təhsil almasına imkan verir.

Valideyn Dünya Hüseynova deyir ki, övladlarımızın belə təhsil ocaqlarında müxtəlif peşələrə yiyələnmələri üçün yaradılan şərait muxtar respublikada gənclərə və yeniyetmələrə, nəticə etibarilə, gələcəyimizə qayğının ifadəsidir. Gənclərimiz bunu dərindən dərk etməli, layiqli mütəxəssis kimi yetişərək həyatımızın müxtəlif sahələrində öz sözlərini deməlidirlər.

Müəllim Xanım Əliyeva: – Müasir layihə əsasında yenidən qurulan, maddi-texniki bazası zənginləşdirilən məktəbdə yaradılan şərait kollektivin məsuliyyət hissini daha da artırıb. Ona görə də məktəbin kollektivi öz işini kompleksin açılışında müəllimlərlə görüşən Ali Məclis Sədrinin verdiyi tövsiyələr əsasında qurub: *"Ordubad Texniki-Peşə və Sürücülük Məktəbinin müasir şəraiti vardır. Gənclər burada hərtərəfli təhsil ala biləcəklər. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, məktəbdə nizam-intizam və tələbkarlıq artmalıdır. Müasir texnologiyalar, yeni innovasiyalar gənclərə hərtərəfli öyrədilməli, peşəkar mütəxəssislər yetişdirilməlidir. Müəllimlər daim öz üzərlərində işləməli, yeni tədris metodları tətbiq olunmalıdır".*

**Muxtar MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Gənclər Fondu

## *"Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsini elan edir*

***"Naxçıvan: dünən və bu gün"*** yaradıcılıq müsabiqəsi aşağıdakı istiqamətlər üzrə keçirilir:

*- Publisistika və teleradio materialları;*
*- Rəsm əsərləri;*
*- Ədəbi nümunələr (roman, povest, hekayə, poema, şeir, pyes, oçerk və sair);*
*- Musiqi əsərləri;*
*- Elmi-tədqiqat işi (araşdırma, məqalə və sair).*

### Müsabiqənin məqsədi

Müsabiqənin keçirilməsində məqsəd Naxçıvan Muxtar Respublikasının inkişaf tarixinə nəzər salmaq, bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, iştirakçıların bacarıqlarını və ideyalarını üzə çıxarmaq, ictimaiyyəti məlumatlandırmaq, qədim və zəngin Naxçıvan tarixinin müstəqillik dövründəki inkişafını müxtəlif materiallarla təqdim etməkdir.

### Müsabiqədə iştirak

Yaradıcılıq qabiliyyəti olan hər kəs müsabiqədə iştirak edə bilər.

### Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirmə meyarları:

*-işlərin bədii səviyyəsi və keyfiyyəti;*
*-müsabiqənin şərtlərinə cavab verməsi;*
*-ideyanın orijinallığı;*
*-savadlı kompozisiya həlli;*
*-işin təsiredici qüvvəyə malik olması və mövzunun asan qavranılması;*
*-yaradıcı yanaşma.*

Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir.

### Publisistika və teleradio materialları

Müsabiqəyə təqdim olunan publisistika materialları "Şərq qapısı", şəhər və rayon qəzetlərində dərc edilməli, teleradio verilişləri Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən televiziya və radiolarda efirə yayımlanmalıdır. Publisistika və teleradio materiallarında ***"Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür"*** qeydi göstərilməlidir.

Müsabiqəyə təqdim olunan məqalələr A4 kağız formatında (dərc olunduğu qəzetin nüsxəsi ilə birlikdə), teleradio materialları isə elektron daşıyıcılarda (CD və ya DVD-də) təqdim olunmalıdır.

### Rəsm əsəri

Müsabiqəyə təqdim edilən rəsm əsərləri rəngkarlığın və qrafikanın müxtəlif texnikalarından istifadə olunmaqla (sulu boya, yağlı boya, quaş, qara qələm, qarışıq texnika və sair) və istənilən material üzərində işlənə bilər. Siyasi rəhbərlərin portretləri əsərlərdə əks oluna bilməz. Müsabiqəyə təqdim olunan rəsm əsərləri minimum 50x60 sm ölçüdə olmalıdır.

### Ədəbi nümunələr

Müsabiqəyə təqdim olunan nəsr, dram nümunələri və şeirlər üçün həcm məhdudiyyəti yoxdur.

### Musiqi əsəri

Musiqi əsərlərinin (mahnı, xor, orkestr və sair) not yazısı çap olunmuş, səsləndirilmiş (ifa olunmuş) variantı isə elektron daşıyıcılarda (CD və ya DVD) müsabiqəyə təqdim olunmalıdır.

### Elmi-tədqiqat işi

Müsabiqəyə təqdim ediləcək elmi-tədqiqat işlərində Naxçıvan Muxtar Respublikasının müstəqillik dövründəki inkişafı təhlil olunmalıdır. Elmi işlər iqtisadiyyat, təhsil, mədəniyyət, ədəbiyyat, tarix, ekologiya və digər sahələrdən birini əhatə etməlidir. Müsabiqəyə əvvəllər heç bir yerdə nəşr olunmamış orijinal tədqiqat əsərləri təqdim olunmalıdır. Ədəbiyyat siyahısı tədqiqat işinin sonunda ayrı bir səhifədə göstərilməlidir. Ardıcıllıq əlifba siyahısına görə olmalıdır.

Əsərlər elektron daşıyıcılarda (CD və ya DVD) və çap olunmuş şəkildə müəllif haqqında bioqrafik məlumatla birlikdə təqdim olunmalıdır.

Müsabiqəyə təqdim olunmuş əsərlər geri qaytarılmır.

### Müsabiqənin keçirilmə vaxtı

Müsabiqə 2016-cı il iyunun 15-dən 2016-cı il noyabrın 30-dək keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyənlər hazırladıqları işləri 2016-cı il noyabrın 30-dək şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fonduna təqdim etməlidir.

Qaliblər 2016-cı ilin dekabrında elan olunacaq və mükafatlandırılacaqlar.

### Müsabiqənin mükafat fondu aşağıdakı kimidir

Müsabiqədə birinci, ikinci, üçüncü və həvəsləndirici yerlər ayrılmış və aşağıdakı mükafat fondu müəyyənləşdirilmişdir:

*Birinci yer (1 nəfər) - 1000 AZN*
*İkinci yer (2 nəfər) - 500 AZN*
*Üçüncü yer (3 nəfər) - 300 AZN*
*Həvəsləndirici yer (3 nəfər) - Qiymətli hədiyyələr*

**Ünvan: Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, Gənclər Mərkəzi.**
**Əlaqə telefonu: (036) 550-84-27**

# Futbol birinciliyi başa çatıb



***Futbol üzrə Şərur rayon birinciliyinin final görüşləri yenidən qurulmuş Araləq kənd stadionunda keçirilib.***

Şərur Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən və 31 may 2016-cı il tarixdə start götürən yarışda rayonun 22 kəndinin futbol komandası mübarizə aparıb.

İyunun 10-da Muğancıq-Müslüm və Kürçülü kənd komandaları birinci və ikinci yerlər uğrunda final görüşündə qarşılaşıblar. Sonda 4:3 hesabı ilə Muğancıq-Müslüm kənd komandası yarışın qalibi adını qazanıb. Çomaxtur kənd komandası isə 3-cü yerlə kifayətlənməli olub.

Sonda yarışın qalib komandalarına təşkilatçılar tərəfindən diplom və kubok təqdim edilib.

**Xəbərlər şöbəsi**

### *Bildiriş*

Ordubad "Quşçuluq" Açıq Səhmdar Cəmiyyəti cəmiyyətin səhmdarlarının ümumi yığıncağında qəbul edilmiş qərara əsasən ləğv olunmuşdur.

### *İtmişdir*

Babək rayonunun Qahab kənd sakini Adıgözəlov Fərman Adıgözəl oğlunun adına olan 432 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 467